**Ulu öndər Heydər Əliyev respublikanın rəhbəri kimi ilk gündən xalqımızın ona bəslədiyi böyük ümidləri doğrultmuşdur. Yaxşı yadımdadır, hələ 1969-cu ilin yayında onun siyasi hakimiyyətə gəlişi ilə respublikamızda mənəvi-psixoloji ab-hava müsbətə doğru dəyişmişdi. Ölkədə nizam-intizam, qanunçuluq möhkəmlənmişdi. Bütün bunlar, əlbəttə, xalqı, sadə insanları razı salırdı.**

# Ulu öndər hər zaman haqq-ədalətin yanında olub

Hamı görürdü ki, respublikanın rəhbəri milli ruhlu insandır, yüksək əxlaq və mənəviyyat daşıyıcısıdır. Fikrimcə, dövlət idarəçiliyində mənəviyyat hər şeydən üstündür, mənəviyyat olmayan yerdə heç bir irəliləyiş mümkün deyil. Heydər Əliyev milli ruha, əxlaqa bütün varlığı ilə bağlı, saf şəxsiyyətdir. O, hər zaman xalqının yanında olub, onun sözünü deyib, cəsarətlə haqqı, ədaləti müdafiə edib.

Azərbaycan xalqı ulu və müdrik xalqdır. O, hər bir siyasətçini əxlaqına, əməlinə görə qiymət verib dəyərləndirir. Xalqın gözündən heç nə yayınmır. O, sevimli rəhbəri Heydər Əliyevə daim inanıb, onun göstərdiyi müdrik yolla irəliləyib.



Bu gün ulu öndərin ruhu şaddır. Onun xalqımıza əmanət qoyduğu müstəqil Azərbaycan dövləti müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik liderliyi ilə parlaq uğurlar qazanır. Heydər Əliyev bir vaxtlar demişdi ki, vaxt gələcək, Azərbaycan bütün dünyaya Günəş kimi doğacaq. Bu gün dahi siyasətçinin həmin arzusu, həqiqətən, çin olub. Bu, böyük xoşbəxtlikdir!

***Sudeif İMAMVERDİYEV,***
***Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tibb elmləri doktoru, professor***

Xalq qəzeti.- 2022.- 13 dekabr.- S.5.